# Ana dili millətin varlığıdır

Uşaq və ailələrə dəstək mərkəzi Beynəlxalq Ana Dili Günü münasibətilə şəhər 1 nömrəli tam orta məktəbində tədbir keçirib. Tədbirdə mərkəzin əməkdaşları və məktəbin kollektivi iştirak edib.

Tədbirdə çıxış edənlər bildiriblər ki, ana dili millətin mövcudluğunun əsas amilidir. Doğma vətənimizdə ana dilinə, onun inkişafına xüsusi önəm verilir. Qeyd olunub ki, dünyada yeddi minə yaxın dil var. Bu dillərdən cəmi 95-i dövlət dili statusuna malikdir ki, ondan biri də bizim ana dilimiz-Azərbaycan dilidir. Biz ana dilimizə verilən bu yüksək statusa görə ümummilli lider Heydər Əliyevə daim minnətdarıq. Onun səyi sayəsində Azərbaycan dili dövlət dili statusunu qazanıb.

**Fərid RAMAZANLI,**
**mərkəzin əməkdaşı.**

# Kənd təsərrüfatı məhsullarının istehsalı çoxalıb

Ötən il rayonda 100,2 milyon manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunub. Aqrar sahədə



məhsul istehsalı əvvəlki illə müqayisədə 3,3 milyon manat və ya 3,4 faiz artıb. İstehsal olunan məhsulun 43,3 milyon manatı bitkiçilik, 56,9 milyon manatı isə heyvandarlıq sektorunun payına düşür.

Rayon statistika idarəsinin məlumatında bildirilir ki, ötən il bitkiçilik məhsulları istehsalında 3,1 faiz, heyvandarlıq məhsulları istehsalında isə 3,6 faiz artım qeydə alınıb. 2019-cu ildə rayonda 6 min 251,5 ton diri çəkidə ət, 40 min 501,8 ton süd, 22 milyon 958 min ədəd yumurta, 413,2 ton yun istehsal olunub.

**"Qəbələ"**

# Qəbələdə emal olunan məhsullar otuza yaxın ölkəyə ixrac edilir

Son illər Qəbələdə 2000 hektardan çox yeni fındıq bağları salınıb, mövcud bağların sahəsi 7069 hektara çatıb. 2019-cu ildə rayonda 8,7 min ton fındıq tədarük edilib, məhsul satışından 26 milyon manatdan çox gəlir götürülüb, fındıq tədarükünə 20 min nəfərdən çox işçi cəlb olunub.

Tədarük edilən fındıq emal olunaraq İtaliya, Almaniya və Rusiyaya ixrac edilib.

Ümumuyyətlə rayonumuzda fəaliyyət göstərən digər sənaye müəssisələrində istehsal olunan



məhsullar dünyanın 27 ölkəsinə göndərilir.

**"Qəbələ"**

# Əsrlərin yadigarları "Əfsanələr paytaxtı"nda

(Əvvəli 5-ci səhifədə).

bi və yerli turistlərin ən çox diqqətini və marağını çəkən bölgələrimizdən sayılır. Bu rayonda təşkil edilən mə-



dəni tədbirlər, eyni zamanda bölgənin tarixi, folklor və zəngin etnoqrafiyasının təbliği deməkdir.

Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə açılış mərasimi keçirilən Qəbələ Arxeoloji Mərkəzi də bu ulu yurdun tarixi və sirli keç-



mişindən soraq verdiyi üçün olduqca böyük əhəmiyyət daşıyır. Minilliklərin mənəvi və mədəni yadigarlarını qoruyan Qəbələ Tarix-Diyarşünaslıq Muzeyi də bu turizm bölgəsinin ziyarətçilərini heyran qoyan mədəniyyət mərkəzlərindən biridir.

**Məhəmməd NƏRİMANOĞLU,**
**Ağaəli MƏMMƏDOV (foto).**
*"AZƏRBAYCAN"*

# Rayonumuzda ümumi daxili məhsul istehsalı xeyli artıb

***Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının uğurla həyata keçirilməsi nəticəsində son 16 ildə respublikamızın bütün şəhər və rayonlarının sosial-iqtisadi mənzərəsi tamamilə dəyişib. Bu illər ərzində regionlarda yüzlərlə yeni istehsal sahəsi, emal və xidmət müəssisələri yaradılıb, nəhəng infrastruktur layihələri icra olunub, on minlərlə yeni iş yeri açılıb.***

"Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunan konfransda Prezident İlham Əliyev birinci dövlət proqramının qəbulundan ötən müddət ərzində ölkə iqtisadiyyatında çox böyük dəyişikliklərin baş verdiyini diqqətə çatdıraraq deyib: "2003-cü ildən bu günə qədər bütövlükdə Azərbaycan iqtisadiyyatı 3,4 dəfə artmışdır. Bu, dünyada rekord göstəricidir. Bütün statistik məlumatlar araşdırıla bilər, inanmıram ki, buna bənzər artım tempi olsun. Bu 16 il ərzində sənaye istehsalı 2,7 dəfə, kənd təsərrüfatı 2 dəfə, xarici ticarət dövriyyəsi 6,4 dəfə, ixrac 7,6 dəfə, o cümlədən qeyri-neft ixracı 5,2 dəfə artmışdır. Bizim valyuta ehtiyatlarımız 27 dəfə artmışdır. 2003-cü ildə valyuta ehtiyatlarımız 1,8 milyard dollar idi, keçən ilin yekunlarına görə 51, indi isə 52 milyard dollara çatmışdır. Yəni, bu, özlüyündə böyük bir göstəricidir".

Regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramlarının uğurlu icrası nəticəsində bölgələrin iqtisadi həyatında baş verən müsbət dəyişiklikləri Qəbələ rayonunun timsalında da aydın görmək olar.

Rayon statistika idarəsindən müxbirimizə bildirilib ki, 16 il ərzində Qəbələ rayonunda iqtisadiyyatın bütün sahələri üzrə ümumi daxili məhsul istehsalı 11,5 dəfədən çox artaraq ötən il 320,2 milyon manat olub. Bu illər ərzində məhsul istehsalı və xidmətlərin həcmi sənayedə 105,6 dəfə, kənd təsərrüfatında 5,3 dəfə, tikintidə 103,2 dəfə, nəqliyyat sektorunda 3,4 dəfə, rabitədə 6,2 dəfə, ticarətdə 11,4 dəfə artıb.

2003-cü ilin oktyabrından 2020-ci ilin yanvarınadək rayonda 21 min 400 yeni iş yeri açılıb. Təkcə ötən il rayonda 2685-i daimi olmaqla, 3206 yeni iş yeri yaradılıb.

**"Qəbələ"**

# Dəm qazından qorunmaq mümkündürmü?

Son illər informasiya mübadiləsinin tempinin artması dünyada və o cümlədən, Respublikamızda baş verən hadisələrin haqqında məlumatların əldə edilməsi, paylaşılması auditoriyasını xeyli genişləndirmişdir. Baş verən hər hansı qəza, təbii fəlakət kimi hadisələr anında ötürülür, yayılır. Bu səbəbdən də bəzən sanki bu və ya digər hadisələrin intensivləşməsi əvvəlki illərə nəzərən çox dəfə artması kimi qəbul olunur. Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Nəzarəti Xidmətinin apardığı statistikalarda yanğın hadisələrinin sayının, bu hadisələrdəki insan tələfatının, dəyən maddi ziyanların uçotunda heç də göstəricilərin pisləşməsinin şahidi olmuruq. Sanki hər sahədə bədbəxt hadisələrin, arzuolunmaz halların sayının artması görüntüsü məhz internetin inkişafı, məlumatlar mübadiləsinin sürətlənməsi, cəmiyyət üzvlərinin həssaslığının artması ilə əlaqədardır.

Narahat doğurucu hadisələrdən biri də dəm qazından zəhərlənmələrin və bunun nəticəsində ölüm hadisələrinin sayının çoxalmasıdır. Bir nəfər belə Azərbaycan vətəndaşının yaxud Azərbaycan Respublikası ərazisində dəm qazından zəhərlənərək ölən əcnəbinin olması faktı özü-özlüyündə bir faciədir. Dəm qazı ən sadə başa düşüləcək dildə təbii qazın və digər yanacaq növlərinin (odun, kömür və s.) natamam yanması səbəbindən ayrılmış qarışıqlı qazın tənəffüs orqanlarına düşməsindən zəhərlənməyə və ölümə səbəb olur. Bəs tam yanmamaya səbəb nədir, ayrılan qarışıq zəhərləyici qaz kütləsi niyə yanma mənbəyindən xüsusi quraşdırılmış şaxta boru ilə kənarlaşdırıla bilmir?! Doğrudanmı, dəm qazından tam müdafiə olunmaq mümkün deyil?!

Bununla əlaqədar Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Nəzarəti Xidməti əhaliyə müraciət etmişdir:

Dövlət Yanğın Nəzarəti Xidməti olaraq, birmənalı aşağıdakı tövsiyələrə əməl olunarsa, bu öldürücü qazdan qorunmaq mümkündür deyirik:

• Heç bir halda qeyri-standart işlədicilərdən istifadə olunmamalıdır;

• Standart işlədicilərin iş prinsiplərinə əməl olunmalı, onların funksional quruluşuna müdaxilə edilməməlidir;

• Hər hansı nasazlıq aşkarlanarsa, ixtisaslaşdırılmış müəssisəyə, professional ustaya müraciət olunmalıdır;

• Su qızdırıcıları - binaların qızdırılması üçün istifadə olunan Rusiya, İran, Avropa istehsalı olan, xalq arasında "pyatiminutka", "kolonka", "kombi", "ariston" və sairə kimi adlandırılan hər bir qızdırıcı aparatın qazla təminatı sertifikata uyğun boru ilə təmin olunmalı, yanmış qazların çıxışı sərbəst, standart, tələb olunan ölçülərə müvafiq qaydada qurulmalı - montaj olunmalıdır;

• İşlənmiş qazların kənarlaşdırılması üçün nəzərdə tutulan şaxta - baca sistemləri mütəmadi qaydada qurum, kənar predmet və sairdən təmizlənməlidir, axarlılığı tutacaq kənar əşya, hər hansı səbəb yolverilməzdir;

• Heç bir halda qaz işlədicisi bilavasitə duşun qəbul edildiyi otağa qoyulmamalıdır, qaz işlədicisi açıq məkanda qoyulmalıdır, duş və işlədicinin bir məkanda olması yolverilməzdir! Əgər bu vacib tələbi pozmusunuzsa, əməl edə bilməmisinizsə, duş olan otaqda hökmən nəfəslik - kiçik ölçülü pəncərə, otağın qapısında isə kiçik diametrli dəliklər olmalıdır. Nəfəslik vardır və qapalıdırsa, bunun Sizin təhlükəsiz duş qəbulunuza faydası olmayacaq, nəfəslik açıq olmalıdır ki, dəm qazı ayrılması varsa, o qazlar hermetik qapalı mühitdə çox toplanıb ölüm gətirəcək həddə çata bilməsin, nəfəslik açıq olmalıdır;

• Fərdi qaydada su qızdırıcısı ilə təmin olunan ev və mənzillərdə şəxsin evdə tək olması zamanı duş qəbul etməsi tövsiyə olunmur, çünki, dəm qazından zəhərlənmə baş verəcəyi halda zərərçəkənin xilas olması üçün kənar şəxsin və ya şəxslərin köməyi zəruridir. Daha konkret desək, evdə, mənzildə təksinizsə, duş qəbulundan vaz keçin, bunu evdə kiminsə olacağı vaxta salın;

• Evdə iki nəfərsinizsə, birinin duş qəbuluna ikincinin köməyi qaçılmazdırsa, hər ikisinin eyni vaxtda duş qəbulu otağında olması da yolverilməz hal hesab olunur, belə situasiyalarda da duşdan kənar şəxsin olması və onun duş otağındakıların halına nəzarət etməsi vacibdir.

• Tövsiyələrimiz qəribə səslənsə də çoxillik fəaliyyətimizdə və təcrübəmizdə təəssüf ki, çox sayda belə bədbəxt hadisələrin şahidi olmuşuq və bu tövsiyələrə əməl etməmənin həyatlar bahasına başa gəlməsi halları yetərincə baş vermişdir;

• Evində fərdi qaydada su qızdırıcısı sistemindən istifadə edən varsa, evdəkilər tərəfindən mütəmadi olaraq duş qəbul edənin - suyun yox, məhz duş qəbul edənin səsini eşitməklə onun vəziyyətinin yoxlanılması vacibdir. Dəm qazından zəhərlənən meyxoşcasına huşunu itirir, duş əvvəlki qaydada axan suya xas olan səsi verməklə axmaqda davam edir, zərərçəkən daha çox bu mühitdə öldürücü qazla tənəffüs edir, qanda zəhərli maddələrin miqdarı artır, krizis güclənir, təəssüflər olsun ki, ölüm hadisəsi baş verir. Zəhərlənmənin ilk anlarında hadisənin aşkarlanması, zərərçəkənin dərhal təmiz havaya çıxarılması və vəziyyətindən asılı olaraq ilkin tədbirlərin görülməsi zamanı təhlükə aradan qaldırıla bilir;

• Heç bir halda mətbəx qaz plitə - sobalarından mənzilin qızdırılması üçün istifadə etməyin;

• Qaz plitələrini nəzarətsiz qoymayın, üstündəki qaynayana kimi, çimim çıxım, yaxud çörək alım gəlim deyə işlək halda qaz plitəsini buraxıb mətbəxi tərk etməyin;

• Mətbəx qaz plitələrinin üstündəki hava sorucu (aspirator) sistemin müstəsna əhəmiyyəti olduğunu unutmayın, hər zaman plitəni alışdırırsınızsa hava sorucunu da dərhal qoşun! Bu sizi həm qoxudan, həm ayrılan buxarlardan, ən vacibi həm də ayrılan zəhərli maddələrdən - dəm qazı tərkibli ayrıntılardan qoruyur!

Hörmətli sakinlər! Qazla, elektriklə, odla ehtiyatlı olun, məişətimizin və sivilizasiyamızın ayrılmaz tərkib hissəsinə çevrilmiş olan bu enerji daşıyıcıları onlarla düzgün rəftar etmədikdə qatilə çevrilir, amansızlıqla öldürə bilir.

**Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Nəzarəti Xidməti.**